# GÜNDOĞAR

QƏZET 1931 - Cİ İLDƏN ÇAP EDİLİR

NEFTÇALA RAYON QƏZETİ

30 APREL 2025 -Cİ İL, №4 (68078)


# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ YENİ SƏHİFƏ



**Prezident İlham Əliyev: “...**Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi ənənəvi olaraq dəstəkləyirik. Bu barədə bu gün də fikir mübadiləsi aparıldı və gələcək birgə əməkdaşlıq çərçivələri müzakirə edildi. İstər BMT olsun, istər İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində daim bizim nümayəndələrimiz bir-birinin yanındadır... Məqsədimiz birdir - Azərbaycan-İran dövlətlərarası əlaqələrini yüksək səviyyəyə qaldırmaqdır. Bunun üçün yenə də deyirəm, müvafiq göstərişlər verildi və əminəm ki, bu göstərişlər yerinə yetiriləcək...”

**Prezident Məsud Pezeşkian**: “... Ümid edirəm ki, bizim burada iştirakımız, həmçinin daha əvvəl keçirilən iclaslarda mütəxəssislərimiz tərəfindən hazırlanan razılaşmalar və bundan sonra imzalanacaq sazişlər Azərbaycanla, əziz, dost, qardaş və demək olar ki, həm də qohum Azərbaycan xalqı ilə əlaqələrimizdə daha geniş addımlarla irəliləyişin başlanğıcına çevriləcək, bölgədə münasib əməkdaşlıq nümunəsinin formalaşmasına səbəb olacaq. Ali Rəhbərin salamını Sizə çatdırmağı özümə borc bilirəm.

Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq. Təbii ki, bizim burada olmağımız əlaqələrimizin və birliyimizin möhkəmlənməsinə imkan yaradacaq...”

Aprelin 28-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian nümayəndə heyyəti ilə Azərbaycanda səfərdə olub. Səfər çərçivəsində Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes-forumu, hər iki dövlətin prezidentləri tərəfindən məhdud və geniş tərkibdə görüşlər keçirilib, Birgə Bəyanat imzalanıb, sənəd mübadiləsi edilib. İmzalanmış “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2025-2028-ci illər üzrə Mədəni Mübadilə Proqramı”, “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025-2027-ci illər üçün Siyasi Məsləhətləşmələr Proqramı”, “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında 2025-2026-cı illər üçün nəqliyyat sahəsində hərtərəfli əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında Anlaşma Memorandum” inanırıq ki, yaxın gələcək üçün uğurla nəticələnəcəkdir.

**“... Ölkələrimiz milli maraqlara aid məsələlərdə həmrəylik və dostluq nümayiş etdirir. Biz bir-birimizin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyirik”...**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsindən.**



**Prezident İlham Əliyev 24 Aprel 2025 -ci ildə Çin Xalq Respublikasına səfər etmişdir. Prezident İlham Əliyevin Çinin Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub. Pekində Azərbaycan-Çin sənədləri imzalanıb. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb.**



***Prezident İlham Əliyev Qusar rayonunda bağçılıq və soyuducu anbar kompleksinin fəaliyyəti ilə tanış olub.***



**Prezident İlham Əliyev Bakıdakı Müqəddəs Məryəm Ana kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı verib.**

Dövlətimizin başçısını və birinci xanımı Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete qarşılayıb.

Prezident İlham Əliyev bildirib ki, Papa Fransiskin Heydər məscidində ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşü insanlar arasında birliyin bərqərar olmasının vacibliyi ilə bağlı mesaj idi.

Prezident İlham Əliyev Papa Fransiskin xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacağını bildirib.

# Aprel döyüşlərinin 9-cu ildönümündə şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edildi







Neftçala rayonunda 2016-cı ilin aprel ayının 1-dən 2-nə keçən gecədən başlayaraq 5 aprel tarixinə qədər davam edən Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş verən hərbi münaqişənin 9-cu il dönümü anılıb. Anım mərasimində Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilatların rəhbərləri, din xadimləri, şəhid ailələri, qazilər, qonaqlar və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları Neftçala şəhərinin mərkəzindəki Şəhidlər Abidə Kompleksini, Həsənabad qəsəbəsində yerləşən Şəhidlər parkını, Neftçala şəhər Şəhidlər Xiyabanında Aprel döyüşləri zamanı şəhid olan Azərbaycanın Milli Qəhrəmanı mayor Samid İmanovun, Aşağı Qaramanlı kəndində şəhid gizir Elimdar Səfərovun və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların məzarlarını ziyarət edərək əziz xatirələrini ehtiramla yad etdilər. Şəhidlər ruhuna dualar oxundu. Ruhları şad olsun.

# "AZƏRİŞIQ" ASC- nin sədri Neftçala rayonunda vətəndaşları qəbul edib

"Azərişıq" ASC paytaxt və regionlarda yenidənqurma və əsaslı təmir işlərinin aparılmasına paralel olaraq maarifləndirici tədbirlər keçirir, bölgələrdə yerli sakinlərlə görüşlər təşkil edir.

Prezident cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov aprelin 15-də Neftçala Elektrik Şəbəkəsinin inzibati binasında Neftçala və Salyan rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib. Vətəndaşlarla görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Neftçala rayonundakı abidəsi ziyarət olunub, xatirəsi ehtiramla yad edilib.

Görüş zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə əlaqədar yazılı müraciət qeydə alınaraq aidiyyəti şöbələrin icraatına göndərilib. Hər iki rayonunun sakinləri regionların elektrik şəbəkələrində həyata keçirilən yenidənqurma işlərinə, eləcə də vətəndaşlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



# Neftçala Rayon Ağsaqqallar Şurasının illik hesabat yığıncağı keçirildi

## Ulu Öndər Heydər Əliyev: "Ağsaqqallar milli-mənəvi dəyərlərimizin qızıl fondudur!"







30 aprel 2025-ci ildə Neftçala rayonunda Ağsaqqallar Şurasının illik hesabat yığıncağı keçirilib.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Respublika Ağsaqqallar Şurasının sədr müavini, akademik Abel Məhərrəmov, Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, rayon ağsaqqalları, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları öncə Neftçala şəhərində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, dahi lideri böyük ehtiramla yad ediblər.

Sonra Rayon İcra Hakimiyyətinin inziati binasında davam edən tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Yığıncaqda Neftçala rayon Ağsaqqallar Şurasının sədri Əbülfəz Ağayevin bir il ərzində görülmüş işlər haqqında hesabat məruzəsi dinlənilib. Məruzədə ağsaqqalların ölkəmizin ictimai-siyasi həyatındakı rolundan, yaşlı nəslin nümayəndələrinə göstərilən dövlət qayğısından bəhs olunub, gənclərin dövlətə, xalqa sədaqət ruhunda, zərərli təsirlərdən uzaq və sağlam əsaslar üzərində tərbiyəsi işində ağsaqqallara hər zaman böyük ehtiyac olduğu diqqətə çatdırılıb.

Hesabat məruzəsi ətrafında çıxış edən Rayon Ağsaqqallar Şurasının sədr müavini Hüsniyyə Zeynalova, Rayon Ağsaqqallar Şurasının üzvü, ehtiyatda olan hərbi qulluqçu Mustafa Əliyev, Rayon Ağsaqqallar Şurasının üzvü, Rayon Ağsaqqallar Şurasının Həsənabad qəsəbəsi üzrə dayaq məntəqəsinin sədri Valeh Tağıyev şuranın illik fəaliyyətini müsbət dəyərləndirmiş və ölkəmizdə milli-mənəvi dəyərlərimizin, o cümlədən ağsaqqallıq ənənələrinin inkişaf tarixinin başlanğıcının məhz Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olduğunu, ağsaqqalların cəmiyyətdə sabitliyin əsas qoruyucusu kimi çıxış etdiyini, insanların nizam-intizama dəvət edilməsində əsas söz sahibi kimi ağsaqqal sözünə, öyüd-nəsihətlərinə böyük hörmətlə yanaşıldığını diqqətə çatdırıblar.

Respublika Ağsaqqallar Şurasının sədr müavini, akademik Abel Məhərrəmov çıxış edərək Neftçalada rayon ağsaqqallarının rayon rəhbərliyi ilə sıx əməkdaşlığından məmnunluğunu ifadə edib. Sədr müavini ölkəmizdə bütün sahələrdə həyata keçirilən inkişaf prosesi ilə bağlı ağsaqqallar tərəfindən əhali, xüsusilə gənclər arasında geniş maarifləndirmə işinin aparılmasının zəruriliyini diqqətə çatdırıb, rayonun ictimai-siyasi həyatında ağsaqqalların daha yaxından iştirak etməsinin vacibliyini vurğulayıb.

Hesabat yığıncağında Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxış edərək bildirib ki, öz sıralarında elm, mədəniyyət və incəsənət adamlarını, ictimai-siyasi xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası cəmiyyətimizin, xüsusilə də yeniyetmə və gənclərin Vətənə məhəbbət, milli-mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edilməsində və maarifləndirilməsində üzərinə düşən mühüm öhdəlikləri yerinə yetirir. RİH-nin başçısı çıxışında ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edərək öz fəaliyyətini bir çox istiqamətlərdə quran Azərbaycan Ağsaqqallar Şurasında təmsil olunan respublika ağsaqqallarının Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hər zaman xalqın mənafeyinə xidmət edən daxili və xarici siyasətini dəstəklədiyini, gənc nəslin milli adət-ənənələrə, azərbaycançılıq məfkurəsinə bağlılıq ruhunda tərbiyə işinə xüsusi diqqət yetirdiyini bildirib. Bu sahədə qarşıda duran vəzifələrdən danışıb və Ağsaqqallar Şurasının gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tədbirin sonunda ağsaqqalların rəy və təklifləri dinlənilib və yığıncaq iştirakçıları ilə xatirə fotosu çəkilib



# Aprel ayında səyyar görüşlər davam edib

Rayon ictimaiyyəti ilə keçirilən səyyar görüşlər aprel ayında da davam etmişdir. Belə ki, 17 Aprel 2025-ci ildə Həsənabad qəsəbəsində, 24 aprel tarixində Xəzərkənddə, 29 aprel tarixində Cəngan kəndində vətəndaşlarla görüşlər təşkil edilmişdir. Vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq - mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak ediblər.

Məlum olduğu kimi səyyar görüşlərdə ay ərzində seçilmiş mövzular üzrə də məlumat verilir. Aprel ayında keçirilən görüşlərdə ***"Müstəqillik və suverenlik Azərbaycan xalqının ən dəyərli sərvətidir", "Tarixi Zəfər nəticəsində əldə etdiyimiz yeni dövrün reallıqları, əzəli torpaqlarımızda Böyük Qayıdış Dövlət Proqramının sürətlə icra olunmasını şərtləndirir", "Azərbaycan və Türkiyə qardaşlığı bütün dünyaya nümunədir"*** mövzularında iştirakçılara məlumat verilib.

➡ 4

# MARAQ YARADAN LAYİHƏLƏR





Aprelin 23-də Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov Şirvan-Salyan Regional Təhsil İdarəsinə səfəri çərçivəsində Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən **"Zəkaların mübarizəsi"** olimpiadasının bilik yarışı üzrə regional mərhələsində iştirak edib.

Tədbirdə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev və digər qonaqlar iştirak ediblər.

Tədbirdə çıxış edən Eşqi Bağırov olimpiadanın şagirdlərin intellektual potensialının inkişafı baxımından əhəmiyyətini vurğulayıb, iştirakçılara uğurlar arzulayıb və bu istiqamətdə təşəbbüslərin davamlı olmasının vacibliyini qeyd edib.

Qeyd edək ki, "Zəkaların mübarizəsi" olimpiadasının keçirilməsində əsas məqsəd istedadlı şagirdlərin aşkara çıxarılması, analitik düşünmə və komanda bacarıqlarının inkişafı, regionlararası əməkdaşlığın gücləndirilməsi və yaradıcı yanaşmaların təşviqidir.

# "Şahin" hərbi idman oyunlarının Şirvan-Salyan iqtisadi rayonu üzrə zona birinciliyi keçirilib







Neftçala rayon Olimpiya İdman Kompleksində keçirilən zona birinciliyində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin Vətənpərvərlik tərbiyəsi sektorunun müdiri Elşən Hüseynov, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rəisi Aydın Yusifov, Şirvan-Salyan Regional Təhsil İdarəsinin Keyfiyyət sektorunun müdiri Mahir Zahidov və digər təşkilatçı qurumların nümayəndələri iştirak edib.

Zona birinciliyində Şirvan şəhərindən, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonlarından hər birində 14 nəfər olmaqla 5 komanda iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsinin yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Neftcala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov bildirib ki, müasir dövrdə ölkəmizdə gənc nəslin vətəndaş kimi formalaşması, mənəvi və fiziki cəhətdən hərtərəfli inkişaf etdirilməsi və şəxsiyyət kimi kamilləşməsi prosesinin cəmiyyətin qarşısında duran əsas vəzifələrdən biridir. "Şahin" hərbi-idman oyunlarının özünəməxsus xüsusiyyətlərə malik olmaqla, hər bir gəncin Vətənə xidmətdə öz rolunu və yerini dərindən dərk etməsini, yüksək şəxsi məsuliyyətin, hərbi vəzifəni yerinə yetirmək üçün lazımi keyfiyyət və bacarıqların formalaşdırılmasında böyük əhəmiyyəti vardır.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin Vətənpərvərlik tərbiyəsi sektorunun müdiri Elşən Hüseynov, Şirvan-Salyan Regional Gənclər və idman İdarəsinin rəisi Aydın Yusifov "Şahin" hərbi idman oyunlarının yeniyetmələrimizin, hərbi çağırış yaşına çatan gənclərimizin gələcəkdə ordu sıralarında ləyaqətlə xidmət etmələri, hərbi texnika və silahları dərindən öyrənmələri istiqamətində müstəsna əhəmiyyətə malik olduğunu bildiriblər. Gənclərə bu yolda uğurlar diləyiblər.

Açılış mərasimindən sonra zona birinciliyinə start verilmişdir. Hərbi-idman oyunları zamanı məktəblilər sıra hazırlığı, manеələri dəf etmə, avtomatın sökülüb-yığılması, 100 metr məsafəyə qaçış, turnikdə dartınma, mülki müdafiə hazırlığı, sanitarların yarışı və digər mərhələlər üzrə qüvvələrini sınamış və bacarıqlarını nümayiş etdiriblər. Hərbi-idman oyunlarının sonunda qiymətləndirməyə əsasən ən yüksək bal toplayan Şirvan şəhər, Neftçala və Hacıqabul rayonlarını təmsil edən komadalar ardıcıl olaraq ilk üç yerə layiq görülüblər.

# "Uşaq hüquqlarının müdafiəsi - gələcəyimizin təminatıdır"

Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın təşkilatçılığı və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Neftçala rayonu üzrə təhsil sektorunun dəstəyi ilə 10 aprel 2025-ci il tarixində R.Gözəlov adına Xıllı qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbində "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Uşaq hüquqlarının müdafiəsi - gələcəyimizin təminatıdır" adlı maarifləndirici görüş keçirilib.



Görüşdə xalqımızın Ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya qurluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi ehtiramla yad edilib.

Məktəblilərlə görüşdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın, Neftçala Rayon Polis Şöbəsinin məsul əməkdaşları, Neftçala RİH başçısının Xıllı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi, Uşaq Səfirlər Məclisinin Neftçala rayonu üzrə nümayəndəsi, həkimlər, müəllimlər, psixoloqlar və məktəblilər iştirak edib.

Çıxış edənlər uşaq hüquqlarının qorunması, müdafiəsi, onların sağlam mühitdə böyüməsi üçün dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, uşaq hüquqları dünyadakı bütün uşaqların doğulduqları gündən sahib olduğu, təhsil, sağlamlıq, sığınma, fiziki, psixoloji və ya cinsi istismara qarşı qorunma kimi hüquqlarının hər birinin təyinində istifadə edilən universal anlayışdır. Uşaq Hüquqları Konvensiyasından bəhs edilərək bildirilib ki, Konvensiya 20 noyabr 1989-cu ildə BMT-in Baş Məclisi tərəfindən qəbul olunub və 193 dövlət tərəfindən qəbul edilmiş uşaqların hüquqlarını təmin edən universal kodekstdir. Azərbaycan 1992-ci il 13 avqustda BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasını ratifikasiya etmiş, 1998-ci ildə Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilibdir. Eyni zamanda görüş iştirakçılarına uşaqların istismar olunması, erkən nikah, narkomaniya, zərərli vərdişlər və s. kimi problemlərin cəmiyyətimizdə uşaq hüquq və azadlıqlarına qarşı yönəlmiş təhlükələri və bu təhlükələrə qarşı mübarizə yolları haqqında ətraflı məlumat verilib. Tədbir qarşılıqlı müzakirələrlə davam etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# NARKOMANİYA -- ƏSRİN BƏLASI

Narkotik "narke" sözündən götürülüb, yunan dilindən tərcümədə mənası yuxu, bihuşluq, "mania" - cəzb etmə, ağılsızlıq deməkdir. Hərfi tərcüməsindən də göründüyü kimi, narkotik vasitələrdən istifadə edən şəxsin beyin hüceyrələri "yuxu rejimi"ndə olur və o, ətrafı, öz iradi hərəkətlərini dərk edə bilmir. Bəşəriyyətin ən böyük ziyanverici xəstəliyindən olan Narkomaniya bu gün də öz aktuallığını qoruyub saxlayır. Narkomaniya istər gənc, istərsə də, yaşlı nəsil nümayəndələri arasında geniş vüsət almışdır. Lakin gənc nəslin nümayəndələri arasında yaşlı nəsil nümayəndələrinə nisbətən daha geniş yayılmışdır. Narkomaniya insanın həyati orqanlarının – beynin, ürək-damar sisteminin, qaraciyərin və böyrəklərin və s. funksiyasının pozulmasına səbəb olur, insan psixologiyasına ümumilikdə sağlamlığına və sosial həyatına sağalmaz zərbələr vurur.

Ölkəmizdə narkomaniya ilə mübarizənin əsası Ümummilli lider Heydər Əliyevin imzaladığı, narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni gücləndirən **"Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında"** 1996-cı il 26 avqust tarixli Fərmanı ilə qoyulmuşdur. Bu Fərman ilə əsas vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən, bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarət olan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edilmişdir.

Cəmiyyətin formalaşmasında, inkişafında da narkomaniyanın mənfi təsirləri yan keçmir. Narkomaniya Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsası olan Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsinə əsasən cəmiyyətin əsas özəyi olan ailələrin möhkəm təməl üzərində qurulmasına baxmayaraq sonradan ailə fərdlərindən birinin narkotikdən asılılıq bəlasına düçar olması nəticəsində ailələrin dağılmasına, boşanmalara səbəb olur. Ulu öndərimiz narkomaniyanı "cəmiyyətin sosial bəlası" adlandırmışdır.

**BƏŞƏRİYYƏTİN BƏLASI**



**AĞ ÖLÜMƏ YOX DEYƏK!**

Baş verən cinayətlərin əksər faizində şəxsin narkotik vasitələrdən istifadə nəticəsində sərxoş vəziyyətdə olaraq öz əməlini dərk etməməsi və özünü idarə edə bilməməsi əsas səbəblərdən biri kimi çıxış edir. Narkotik aludəçilərinin orqanizminin abstinent sindromu (lomka) zamanı yaranan ağrı hislərindən azad olmaq arzusu o dərəcədə güclü olur ki, bu zaman narkotik əldə etmək xatirinə insan yalana, oğurluğa, hətta adam öldürməyə də əl atır. Törədilən bir sıra qəsdən adam öldürmə, qəsdən sağlamlığa ağır zərər vurma, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə, zorlama, oğurluq, hədə-qorxu ilə tələb etmə, xuliqanlıq və s. ağır cinayətlərin törədilməsinə təqsirkarın narkotik vasitələrdən istifadəsi nəticəsində sərxoş vəziyyətdə olması və ya narkotik istifadəçisinin orqanizminin abstinent sindromu (lomka) zamanı yaranan ağrı hisslərindən azad olmaq arzusu zəmin yaradır və ya birbaşa səbəb olur.

**Siyasi cəhətdən də narkomaniya düşmən dövlətin xalqını, xüsusən də azyaşlı və gənc nəsil nümayəndələrini zəhərləyərək zəiflətməyin əsas meyarıdır.**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər" adlı 26-cı fəslində qeyd olunan cinayət tərkiblərinə görə nəzərdə tutulan sanksiyaların (cəzaların) ağırlığı Narkomaniyaya qarşı mübarizədə mühüm rol oynayır.

Ümumilikdə narkomaniyanın vurduğu bütün mənfi zərbələri nəzərə alaraq Narkomaniyanın – Əsrin bəlasının qarşısının alınmasında birlik olunmalı, hər bir şəxs öz vətəndaşlıq borcunu yerinə yetirərək əsrin bəlasına qarşı birlikdə mübarizə aparmalıdır. Azyaşlı nəsilə ailədən başlayaraq, yetkinlik yaşına çatmayan şəxslərə məktəb illərinin (illərindən) sonlarından, yetkinlik yaşına çatmış şəxslərə təhsil ocaqlarında təhsil alarkən narkomaniyanın vurduğu zərbələr real və konkret olaraq əyani sübutlarla (nümunələrlə) göstərilməli, narkomaniyaya qarşı mübarizə üsulları, narkomaniyadan xilas olunmağın təkcə sağlamlıq üçün deyil həm də mənəviyyatın xilas olması üçün vacib addım olması izah olunmalıdır.

**Nərmin TAPDIQLI,**
**Neftçala rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas**

# Aprel ayında səyyar görüşlər davam edib



2 **Hər bir mövzu geniş şəkildə əhaliyə çatdırılıb. Bildirilib ki, müstəqillik yolumuz, baş verən faciələr, tarixi zəfərimiz, bu gün ərazilərimizdə erməni vandalizminin dəhşətli nəticələrinin aradan qaldırılması, mənfur düşmənin talan etdiyi ərazilərdə tarixi abidələrimizin bərpa olunması, həmçinin yurdundan didərgin düşən məcburi köçkünlərimizin öz ocaqlarına qayıtması hər birimizin yaddaşında əbədiləşən ən yeni tariximizdir.**

**RİH-in başçısı cənab Mirhəsən Seyidov zəfərlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi ədalətin bərpa edilməsi konsepsiyasının davamı olaraq məcburi köçkünlərin və qaçqınların Böyük Qayıdışını təmin etmək sahəsində xidmətlərini xüsusi olaraq qeyd edib. O, həmçinin Azərbaycan xalqının milli-mənəvi dəyərlərini və haqqını bərpa etmək missiyasının önəmindən danışıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə bununla bağlı ciddi tapşırıqlar verdiyini vurğulayıb.**

**Səyyar qəbul zamanı vətəndaşlar rayon ərazisində aparılan abadlıq- quruculuq işlərinə görə öz təşəkkürlərini bildiriblər, həmçinin məişət tullantıları üçün əlavə yerlərin yaradılması, suvarma kanallarının lildən, kol-kosdan təmizlənməsi, əlilliyin təyin olunması, milliön ödəmə terminalının quraşdırılması və digər məsələlər üzrə müraciətlərini irəli sürüblər. Vətəndaşların müraciətləri ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə edilib və həll olunması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.**

# *"REGİONAL İNKİŞAF" İCTİMAİ BİRLİYİNİN NEFTÇALA LAYİHƏLƏRİ*



"Regional İnkişaf" İctimai Birliyinin "Neftçala gəncləri üçün liderlik məktəbi" layihəsi çərçivəsində təlimlərə start verilib. Təlimin ilk günündə iştirakçılarla tanışlıq görüşü keçirilib, gənclərə proqram barədə ətraflı məlumat verilib, məqsəd və gözlənilən nəticələrdən danışılıb, layihə ilə bağlı suallar cavablandırılıb.

Sonra "Liderlik məktəbi"nin təlimçisi Tofiq Sadıxov "Nitq və ünsiyyət bacarıqları" mövzusunda təlim keçib, nitq, natiqlik, ritorika anlayışlarını şərh edərək, özünütəqdimetmə prosesində nələrə diqqət edilməli olduğundan və dinləyici qruplarının xüsusiyyətlərindən bəhs edib. Gənclər natiqlik və ritorikanın fərqini, təqdimetmə bacarıqlarını müzakirə edib, təlimçi tərəfindən bu bacarıqlarını daha da inkişaf etdirmək barədə tövsiyələr alıblar.

Təlimin ikinci günündə liderlik mövzusuna həsr olunmuş sessiya keçirilib. Sessiyada Tofiq Sadıxov iştirakçılarla görüşərək liderliyin əsas anlayışları, effektiv liderin xüsusiyyətləri, komanda idarəçiliyi və qərarvermə prosesində liderin rolu haqqında ətraflı məlumat verib.Sessiya zamanı interaktiv müzakirələr aparılıb, iştirakçılar öz suallarını ünvanlayıb və müxtəlif situasiya tapşırıqları vasitəsilə mövzunu daha dərindən mənimsəyiblər. Qeyd edək ki, "Neftçala gəncləri üçün liderlik məktəbi"nə müraciət edən 190 nəfər gənc arasında 26 nəfər müsahibədən uğurla keçərək iştirakçı hüququ qazanıb. Layihə gənclərin liderlik və komanda ilə işləmək bacarıqlarını inkişaf etdirmək, onların yeni bilik və təcrübələr qazanmasına dəstək vermək, effektiv kommunikasiya və yaradıcı düşüncə kimi keyfiyyətlərə yiyələnmələrinə imkan yaratmaq məqsədilə həyata keçirilir.

***"Gündoğar"***

# "SÖNMƏYƏN İŞIQ" - ZƏRİFƏ XANIM ƏLİYEVA







Tədbirdə Neftçala rayon İcra Hakimiyyətinin məsul şəxsləri, şəhid anaları, rayonun hüquq-mühafizə orqanlarında, bələdiyyə, idarətmə sistemində, YAP Neftçala rayon təşkilatında, səhiyyə, mədəniyyət və digər sahələrdə çalışan xanımlar iştirak edib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, görkəmli akademik Zərifə xanım Əliyevanın, vətən uğrunda candan keçən şəhidlərin əziz xatirəsi yad olunub və Dövlət Himni səsləndirilib.

Tədbirdə Neftçala RİH aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə çıxış edərək Zərifə xanım Əliyevanın həyat və fəaliyyəti haqqında geniş məlumat verdi. Tədbirdə çıxış edən Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filarə İsmayılova, YAP Neftçala Rayon təşkilatının məsləhətçisi Sona Mirzəyeva, Xıllı qəsəbə Ailə Sağlamlıq Mərkəzinin müdiri Şəfiqə Əsədova müasir Azərbaycan qadınına xas ən yüksək keyfiyyətləri özündə əks etdirən gözəl ailə başçısı, qayğıkeş ana, peşəkar həkim, dünya şöhrətli alim, cəmiyyətdəki mövqeyi və uğurlu fəaliyyəti ilə sözün əsl mənasında böyük şəxsiyyət olan, zəngin elmi fəaliyyətində işıqlı keyfiyyətləri yüksək səviyyədə yaşadan, möhkəmləndən görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın mənalı ömür yolundan, bu yolun yeni-yeni ziyalı nəsillər üçün örnək olduğunu bildirdilər.

Görüşdə Zərifə xanım Əliyevanın bənzərsiz ömür yolunu özündə əks etdirən, dəyərli alimin əziz xatirəsinə həsr olunmuş "Sönməyən işıq" filmi izlənilib.

# VƏTƏN SİZİ UNUTMAZ...



**Neftçala rayon Heydər Əliyev Mərkəzində "Konstitusiya və Suverenlik ili" çərçivəsində şəhid anaları ilə "Vətən Sizi unutmaz" adlı görüş keçirilib.**

Tədbirin təşkilatçıları və iştirakçıları ölkədə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkürlərini bildiriblər. Eyni zamanda, dövlətin bu istiqamətdə həyata keçirdiyi ardıcıl və həssas addımlar, şəhid ailələrinin daim diqqət mərkəzində saxlanılması, cəmiyyətə nümunə olmasını vurğulayıblar.

**Tədbirdə iştirak edənlər arasında 70 yaşına yeni qədəm qoyan Azərbaycanın Milli Qəhrəmanı mayor Samid İmanovun anası Xuraman xanımın yubileyi xüsusi olaraq qeyd olunub. Qonaqlar Xuraman Anaya fədakar ömürə, Vətənə verdiyi əmanətə, göstərdiyi sonsuz dözüm və iradəyə görə təşəkkür edib, can sağlığı arzu ediblər. Sonda Ulu öndər Heydər Əliyevin həyatını və siyasi irsini əks etdirən muzey və sərgiyə baxış keçirilib.**

# Hər bir azərbaycanlının Prezidenti – İlham Əliyev

Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin oxu zalında Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının əməkdaşları Fərhad Baxışov, Sona Mirzəyeva və müəssisədə çalışan partiya üzvlərinin iştirakı ilə "Hər bir azərbaycanlının Prezidenti – İlham Əliyev " mövzusunda görüş keçirilmişdir. Tədbirdə Ulu Öndər Heydər Əliyevin və vətən şəhidlərinin əziz xatirəsi ehtiramla yad edilib.



Tədbiri giriş sözü ilə açan Sona Mirzəyeva tədbir iştirakçılarını salamlayıb, təşkilat tərəfindən mütəmadi olaraq həyata keçirilən maarifləndirmə tədbirlərinin partiya üzvlərinin ictimai-siyasi hadisələrlə bağlı məlumatlılığını artırmağa xidmət etdiyini bildirib. YAP Neftçala rayon təşkilatının ideoloji işlər üzrə məsləhətçisi Fərhad Baxışov çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, beynəlxalq miqyasda özünə layiqli yer tutmasına, siyasi sistemin plüralist inkişafına, iqtisadi müstəqilliyə və ictimai həyatın bütün sahələrinin tərəqqisinə xidmət edir. Bildirib ki, 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinin Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatıb. Onun gərgin əməyi, misilsiz xidməti, siyasi uzaqgörənliyi, üstün diplomatiyası sayəsində Azərbaycan bütün sferalarda böyük uğurlara imza atıb, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub.

Tədbirdə Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşları, partiya fəalları B.Niftalıyeva, G.Abdulhüseynova və F.Məmmədovanın çıxışları dinlənilib. Qeyd edilib ki, ötən dövr ərzində həyata keçirdiyi daxili və xarici siyasət strategiyasının səmərəlilik səviyyəsinə, bunun fonunda ölkəmizin milli inkişafının real nəticələrinə, Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminin nüfuzlu mövqeyinə, eyni zamanda, özünün liderlik keyfiyyətlərinə görə İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirib.






## MƏKTƏBLİLƏRİN MAARİFLƏNDİRİLMƏSİ VACİBDİR!

Neftçala Rayon İcra Hakimiyyətində yaradılmış **"Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu"nun** təşkilatçılığı ilə 22 aprel 2025-ci il tarixində"Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar olaraq qızların hüquqlarının müdafiəsi mövzusunda maarifləndirmə tədbiri keçirildi: bulinqə məruz qalma halları zamanı göstərilən hüquqi və psixoloji dəstəklə bağlı" mövzuda Şəmsəddin Orucov adına Həsənabad qəsəbə tam orta məktəbdə təhsil alan VIII - IX sinif şagirdlərinin, məktəb rəhbərliyinin, pedaqoji kollektivin və valideynlərin iştirakı ilə görüş baş tutdu.Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətində yaradılmış "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupu"nun katibi Gövhər Məmmədova, Neftçala rayon Polis Şöbəsinin yetkinlik yaşına çatmayanların proflaktiki işin təşkili qrupunun baş inspektoru polis mayoru Yalçın Qafarov, məktəbin müəllim və psixoloqu mövzu ətrafında çıxışlar edərək antibullinq siyasətinin mahiyyəti, aradan qaldırılması, bullinqdən necə qorunmağın yolları haqqında məlumat verdilər .

# AİLƏ – HƏYATIN TƏMƏL DAŞI!




**25 Aprel 2025-ci ildə Neftçala rayon Heydər Əliyev Mərkəzində Mədəniyyət müəssisələrinin birgə təşkilatçılığı ilə görkəmli akademik Zərifə xanım Əliyevanın anadan olmasının 102-ci ildönümü ilə əlaqədar "Ailə-həyatın təməl daşı" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər dəyərli alim Zərifə xanım Əliyevanın xidmətləri haqqında məlumat verməklə əziz xatirəsini ehtiramla yad ediblər.**



Qeyd olunub ki, Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Azərbaycanın dilbər guşəsi olan Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə institutu əla qiymətlərlə bitirir. Sonra Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda iki illik ixtisaslaşdırma kursunda həkim-oftalmoloq ixtisasına yiyələnir. O, ixtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa çatdırdıqdan sonra Vətənə qayıdır, 1949-cu ildən başlayaraq Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 1950-ci ildə isə aspiranturaya daxil olur, praktik əməli həkim fəaliyyəti ilə yanaşı elmi axtarışlarını davam etdirir. Dəyərli alimin zəngin pedaqoji, elmi və əməli təcrübəsi «Oftalmologiyanın aktual məsələləri» monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapmışdır.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi. Zərifə xanım Əliyevanın xidmətləri dəyərbilən xalqımızın yaddaşında əbədi qalacaqdır. Ruhu şad olsun.

# ZƏRİFƏ XANIM ƏLİYEVANIN XATİRƏSİ YAD EDİLDİ



Tədbirdə YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, təşkilatın əməkdaşları, Neftçala RMX PHŞ-nin direktoru Elman Quliyev və müəssisənin kollektivi iştirak ediblər. Tədbir Ulu Öndər Heydər Əliyevin, Zərifə xanım Əliyevanın və vətən uğrunda canından keçən Şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başladı. Tədbirdə çıxış edənlər - YAP Neftçala rayon təşkilatının əməkdaşı Fərhad Baxışov, Neftçala RMX PHŞ-nin direktoru Elman Quliyev, həkim-oftalmoloq Süsən Əliyeva, YAP Neftçala rayon təşkilatınn sədri Ülvi Fərzəliyev görkəmli alimin keçdiyi şərəfli ömür yolunun hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi olduğunu bildiriblər. Akademik Zərifə xanımın elmi fəaliyyətinin əhəmiyyətini, fədakar ömür yolunu bir daha iştirakçıların diqqətinə çatdıraraq əziz xatirəsini ehtiramla yad ediblər. Bildirib ki, elmi fəaliyyəti ilə yanaşı, Zərifə xanım eyni zamanda, qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olub.

Tədbirin sonunda isə partiya sıralarına yeni qəbul olunan üzvlərə vəsiqələr təqdim edilib.

# YAXŞI KİTAB ÇOX QİYMƏTLİ XƏZİNƏDİR!








23 Aprel 2025-ci ildə Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi kitabxanasında 23 Aprel "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və 1985-ci ildə fəaliyyətə başlayan Mərkəzi Kitabxananın 40 - illiyinə həsr edilmiş **"Yaxşı kitab çox qiymətli xəzinədir"** adlı kitab bayramı keçirildi. Tədbirdə rayon yazarları, ziyalılar, uzun müddət kitabxanada çalışan hazırda təqaüddə olan kitabxanaçılar və ayri-ayri təşkilatlardan nümayəndələr iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan MKS-nin direktoru Gülnarə Qasımova kitabı sevən, kitaba qiymət verən kitabxanamızı doğma ocağı sayan insanları salamladı və bayram münasibətilə təbrik etdi. Tədbirin aparıcıları MK-nın əməkdaşları Mirzeynəb Məmmədova və Növrəstə Əliyeva çox maraqlı, geniş məzmunlu ssenari ilə tədbir boyu iştirakçıları məlumatlandırır, kitabxananın fəaliyyəti ilə maraqlı məlumatlar verir, qonaqları təqdim edir, bir-birindən maraqlı çıxışları təqdim edirdilər.

Kitab bayramında çıxış edən yazıçı, publisist Əlövsət Polad, şair Fərhad Əzizbəyli, yazıçı Ələkbər Zahidov, şairə Gülqədəm Mirzəzadə, şairə Bədirə Rza Həsənqızı, yazıçı, publisist Nəzakət Quluqızı, şairə Nazilə Gözəlova, həvəskar şairə, kitabxananın fəal oxuculardan olan Könül Dadaşova öz dəyəri ilə illərin sınağından çıxmış, öz əhəmiyyətini qoruyub saxlayan, gələcək nəsillər üçün arxivləşən kitabxanamızın əhəmiyyətindən danışdılar. Qeyd edildi ki, **"Qoy kitabxanamızın işıq, bilik məlumatla zəngin divarları hələ yüz il sonra da yaşasın və insanlığa xidmət göstərsin".**

Tədbirdə iştirak edən Samid İmanov adına 1 saylı və Bankə 2 saylı tam orta məktəbin şagirdləri bir - birindən maraqlı çıxışlarla tədbir iştirakçılarını salamladılar. Rayon Kürkənd kənd klubunin işçisi Anar Əliyevin skripkada ifa etdiyi musiqilər tədbirə xüsusi rəng qatdı.

Tədbirdə fəal kitabxanaçılardan Zəminə Axundova, Ayşən Məmmədzadə, Mirzeynəb Məmmədova, Mehriban Əbilova, Pikəxanim Həsənovanın həzin musiqi sədaları altında səsləndirdikləri şeirlər tədbir iştirakçıları tərəfindən xüsusilə alqışlandı.

Bu il kitabxanamızın yeni binasının istifadəyə verilməsindən 40 il ötür. Tədbirdə kitabxananın veteran əməkdaşları da iştirak edirdi. Bu binada 1985-ci ildə açılan gündən Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru vəzifəsində çalışmış, rəhbər kimi öz işinə məsuliyyətlə yanaşan, peşəsini sevə-sevə yerinə yetirən, hazırda təqaüddə olan Cahangir Abdullayev, kitabxanaçılardan Püstəxanım Kərimova, Amaliya Əzizova, Bibixanım Qənbərova, Elmira Hüseynova öz ürək dolusu xatirələrini tədbir iştirakçıları ilə bölüşdülər.

Tədbirin sonunda Şirvan - Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon üzrə nümayəndəsi Gülər Mirzəyeva, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Neftçala Rayon Komitəsinin sədri Gülqayıt Mürsəlova Kitab bayramı münasibətilə bütün kitabsevərləri təbrik etdilər və keçrilən tədbirin əhəmiyyətini xüsusi vurğuladılar.

Xoş ovqatla başa çatan kitab bayramından hər bir iştirakçı yaddaqalan təəssuratla ayrıldı.

**Fərqanə MƏMMƏDOVA**
**Şirvan-Salyan Regional Mədəniyyət İdarəsi Neftçala rayon MKS-nin Mərkəzi Kitabxanasının Xidmət şöbəsinin müdiri**



## ALLAH RƏHMƏT ELƏSİN!

**"Gündoğar" qəzeti Şəhid Vüqar Soltanovun anası AMİNƏ ANANIN vəfatından kədərləndiyini bildirir, bütün oxucuları adından əzizlərinə dərin hüznlə başsağlığı verir.**



## *Bu dərd səni çox incitdi, ay ANA...*

***25 Aprel 2025-ci ildə ürəyi bala dağlı bir ana köçdü dünyamızdan. "Şəhid anası vəfat edib"- dedilər. Ananın bitən ömrü qəlbimizi sızlatdı.Yaşadığı ömürdə həsrət yaşadığı balasına nə qədər sözü vardı, ürəyinin bala dağı, göynəyən qəlbi bir daha nisgillə doldu könlümüzə... "Bəlkə də ağrıdan qurtuldu ana..., həsrətində olduğu nakam övladına - vətən şəhidi balasına qovuşdu"- deyən, düşünənlər də oldu...***

Aminə ananın yaşadığı evin qapısını döyəndə artıq 4-cü gün idi ki, ana vəfat etmişdir. Qürub vaxtı idi. Evdə qonşular, qohumlar vardı. Ocağında yaşayan oğlu Zülfüqarı, gəlinini ilk dəfə idi görürdüm. Səmimi insanlar ilk baxışdan bəlli olur. Çox tez ünsiyyət yarada bildik...

Şəhid anası Aminə Mehdiqulu qızı Soltanova Neftçala rayonu Kürkənd kəndindəndir. O, səkkiz uşaq anası idi. Səkkiz övladının dördü həyatdan köçmüşdür. Onlardan biri də anasını çox istəyən, vətən üçün can fəda edən oğlu Vüqar Soltanov olmuşdur.

Şəhid Vüqar Sabir oğlu Soltanov 17 aprel 1972-ci ildə Kürkənd kəndində anadan olmuş, orta təhsilini başa vurduqdan sonra Quryevdə (Qazaxıstan, ndiki Atırau) hərbi xidmətini başa vurmuşdur.1992-ci ildə, aprel ayında evə qayıdan Vüqar Soltanov aprel ayının 20-dən hərbi təlimlərə qoşulur. Payıza qədər müxtəlif ərazilərdə döyüş yolu keçən Vüqar Soltanov 1992-ci ilin sentyabr ayının 9-da Ağdərə rayonunda Çıldıran kəndində şəhid olur. Sentyabr ayının 10-da doğma rayonumuzda ehtiramla dəfn olunur. Onun getdiyi yol unudulmur. Müqəddəs amalı yaşayır, zəfər yolumuzun xatirəsində könüllərdə yenidən oyanır. Ruhu şad olsun.

Kürkənd kənd məktəbi şəhid Vüqar Soltanovun adını daşıyır. Kürkənd kəndinin ilk şəhidi olduğundan kənd məktəbinə şəhidimizin adı verilib. Bu gün də onun haqqında danışanda "çox ailəcanlı, zəhmətkeş oğul idi" - deyirlər. Burada təhsil alan hər bir gənc vətən üçün can fəda edən əziz şəhidlərimizi ehtiramla yad edir, onların örnək ömür yolunu unutmurlar.

Aminə ananın ocağında olarkən oğlu Zülfüqar Soltanov rayon rəhbərliyinə təşəkkür etdi. Bildirdi ki, ***"Anamın yas mərasimində iştirak edən bütün məsul işçilərə, göstərdiyi diqqət və qayğıya görə, bütün ehtiyaclarımızın qarşılanmasına görə, eyni zamanda şəhid qardaşım Vüqar Soltanovun məzarının yenidən təmir edilməsində ailəmizə köməyini əsrgəməyən insanlara, xüsusilə, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidova çox minnətdarıq. Ailəmiz adından təşəkkür edirik. İnsanın ən çətin anında ona olan diqqət əvəzolunmazdır. Mən də belə bir an yaşadım. Və gördüm ki, şəhid qardaşım yanımızda olmasa da onun xatirəsi çox əziz, hörmətlə yad edilir, ailəsinə diqqət və qayğı göstərilir".***

Bəli, şəhid ömürlər el yolunda yanan məşəldir. Hansı zamandan, hansı qərinədən baxsaq, işığı görünəcəkdir. Allah bütün şəhidlərimizi, dünyasını dəyişən valideynlərini, eyni zamanda Şəhid Vüqar Sabir oğlu Soltanovun da valideynlərini rəhmət eləsin. Əzizlərinə səbir vesin. Amin.

*Bədirə Rza Həsənqızı*

## QƏHRƏMANLAR UNUDULMUR!

**Neftçala rayon Heydər Əliyev Mərkəzində "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Qəhrəmanlıq unudulmur!" adlı görüş keçirilib. Görüşdə şəhid ailələri, qazi və veteranlar iştirak edib.**

**Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.**

**Tədbir şəhidlərin xatirəsinin yad edilməsi ilə başlayıb. Dövlət Himni səsləndirilib.**

**Tədbiri giriş sözü ilə açan Neftçala rayon Heydər Əliyev adına Mərkəzin direktoru Könül Məmmədova Vətən müharibəsində qazilərin göstərdiyi şücaətdən, şəhid ailələrinin mətanətindən söz açıb. Daha sonra layihə rəhbəri Əzəmət Əsədova çıxış edərək layihənin məqsədindən danışıb, təşkilatçılara öz təşəkkürünü bildirib.**

**Tədbir qazilərin həyat və döyüş yolu əks olunan videoçarxla davam edib. Tədbirdə çıxış edən şəhid anaları, qazilər, qonaqlar tədbirin əhəmiyyətli olduğunu, qazilərə daim diqqət və qayğının olmasının vacibliyini vurğulayaraq, gənclərin vətənpərvərlik ruhunda formalaşması üçün belə tədbirlərin keçirilməsini qənaətbəxş hesab ediblər.**



## Kitab təqdimatı keçirildi



**Vətən şəhidləri haqqında çox müəlliflər kitab yazır, qəhrəman şəhidlərimizin müqəddəs yolunun tarixdə daha əhatəli işıqlanması üçün səy göstərirlər. Onlardan biri də Azərbaycanımızın hər bölgəsini qarış-qarış gəzərək şəhid ailələrinin yanında olan gənc şairə Esmira Günəşdir. Esmira xanım mart ayının 11-də I Qarabağ döyüşlərində itkin düşən şəhidimiz Azad Ağaverdi oğlu Zeynalovun doğum günündə digər rayonlardan olan bir qrup şəhid ailələri ilə birlikdə onun əziz xatirəsini ocağında yad edərək rayon Heydər Əliyev adına Mərkəzdə yeni çap olunan "Qəhrəman analar" kitabının təqdimat mərasimini keçirdi.**

**Tədbirdə şəhid ailələri ilə birlikdə digər müəssisə və təşkilatlardan əməkdaşlar, həmçinin Xıllı qəsəbə R. Gözəlov adına məktəbin şagird və müəllimləri də iştirak edirdi. Tədbirdən sonra Esmira xanım şəhid kapitan Xəzər Cəfərovun ocağını ziyarət etdi. Şəhidlər ruhu şad olsun. Amin.**

**Esmira xanıma sevdiyi fəaliyyətində uğurlar diləyirik.**

## *"UZAQDAKI YAXINIMIZ..."*

***El dilində bir məsəl var: "Gözdən uzaq olan könüldən də uzaq olar". Amma Neftçala rayon Heydər Əliyev adına Mərkəzin direktoru çox dəyərli Könül xanım uzaq-yaxın bilmədən bütün ziyalılarımızla daim ünsiyyət qurur, maraqlı layihələrlə işgüzar fəaliyyətini davam etdirir. Həm sevinir, həm sevindirir, həm yol açır, həm tarixə köçürür.***



**Həmyerlimiz, yazıçı Eluca Atalıdan danışırıq. İsveçdə yaşamasına baxmayaraq qısa zaman fasiləsindən sonra yenə də oxucuların görüşünə gəlmiş, müxtəlif mövzularda yazdığı kitabları haqqında oxucuların rəy və təkliflərini öyrənmiş, suallarını həvəslə cavablandırmışdır.**

**Eluca Atalı haqqında qəzetimizin 29 mart 2024-cü il buraxılışında geniş məlumat verilmişdir. Qeyd etmək istərdik ki, Eluca Atalı Neftçala rayonunun Xolqarabucaq kəndində anadan olmuşdur. BDU-nin "Kitabxanaçılıq" fakültəsini bitirmişdir. Müəllifi olduğu "Atlara güllə atmayın", "Tiqranizm Xocalıda", "Nalşəkilli mühasirə", "Qız və quzğun", "Ənqa quşu" və s. kitabları ilə oxucuların dərin rəğbətini qzanmışdır.**

## Gülzar nənəni kim tanımır ki?



**Uşaqların sevimli yazıçısı Gülzar İbrahimovanın rayonumuza səfəri təkcə uşaqları deyil, elə hər kəsi sevindirmişdir. Çünki uşaqların sevinci elə hər birimizin sevincidir. Gülzar nənə 100-dən çox kitab müəllifidir, uşaqların züvqünü müxtəlif istiqamətlərdə ən gözəl çalarlarla sevindirmiş, zehinlərinə işıq saçmışdır.**

**Tez-tez rayonlarda yaşayan uşaqlarla, əsasən cəbhə bölgəsində yaşayan oxucularla görüşlər keçirir, onlara kitab, "Sehrli dünya" jurnalları hədiyyə edir.**

**Tədbirə gedən bir qrup uşaqların sevincin izlədim. Əllərindən müəllifin jurnallarını yerə qoymur, hər kəs Gülzar nənəyə sual verəcəyini söyləyirdi. Bu qədər maraq yarada bilmək bir yazıçının xoşbəxtliyidir, əziz Gülzar xanım.**

**Yazıçı Gülzar İbrahimova 21 dekabr 1958 -ci ildə Zəngəzur mahalının Mehri rayonu Əldərə kəndində müəllim ailəsində anadan olub.**

**Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin, Mətbuat Şurasının üzvüdür. Həsənbəy Zərdabi mükafatçısı, Prezident təqaüdçüsüdür.**

***"GÜNDOĞAR"***

GÜNDOĞAR

# Neftçala rayonunda "Konstitusiya və Suverenlik" ili çərçivəsində "Nə? Harada? Nə zaman?" intellektual bilik müsabiqəsi keçirilib



29 aprel 2025-ci il tarixdə Neftçala Rayon İcra Hakimiyyətinin və Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə Neftçala Olimpiya İdman Kompleksində rayonun İnzibati ərazi dairəsi üzrə nümayəndəliklərin, rayon ərazisində fəaliyyət göstərən müxtəlif idarə, müəssisə və təşkilatların komandaları arasında "Konstitusiya və Suverenlik" ili çərçivəsində "Nə? Harada? Nə zaman?" intellektual oyunu formatında bilik müsabiqəsi keçirilib.

Yarışda Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, Neftçala rayon Gənclər və idman sektorunun, Neftçala rayon Təhsil sektorunun rəhbər heyəti və digər əlaqədar qurumların nümayəndələri iştirak ediblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.Yarışda çıxış edən Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Vasif Əliyev, Neftçala rayon Gənclər və idman sektorunun müdiri Araz Əhmədov yarışın məqsədi və əhəmiyyəti haqqında ətraflı məlumat verərək iştirakçılara uğurlar arzulayıblar. Bilik yarışında hər birində beş üzv, ümumilikdə 135 nəfər olmaqla 27 komanda iştirak edib. Gərgin mübarizə şəraitində keçən yarışda I yerdə Neftçala Rayon Polis Şöbəsinin "Bütöv Azərbaycan" komandası, II yerdə Neftçala Rayon İcra Hakimiyyəti başçısının Boyat kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəliyinin "Boyat" komandası, III yerdə isə Neftçala Rayon İcra Hakimiyyəti başçısının Aşağı Surra kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəliyinin "Surralılar" komandası qərarlaşıb. Qalib komandalar Neftçala Rayon İcra Hakimiyyəti və Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsi tərəfindən müvafiq olaraq diplom, medal və kubokla təltif olunublar.

**İBN SİNA: "Başın ağrıdısa, qan al" - Böyük alim həcaməti, yəni bədəndən pis, qara, çirkli qanların xaric edilməsini, el arasında deyildiyi kimi, "qan aldırmağı" başağrısının ən yaxşı dərmanlarından biri kimi göstərir: "Atəşli başağrıları qandan gəlir. Üz qızarması, damarların yığılması, nəbzin sürətli vurması başağrılarının əsas əlamətləridir. Bu zaman qan verməklə yanaşı, yumurta sarısı, armud və sirkənin qəbulu çox faydalıdır".**

**...Cüzcani onun ilk və ən sevimli şagirdi sayılsa da, İbn Sinanın əsas davamçısı ola bilmədi. Bu missiyanı böyük həmyerlimiz Bəhmənyar Azərbaycani daşıdı. Azərbaycan filosofu Bəhmənyar ibn Mərzbanla İbn Sinanın tanışlığı haqqında maraqlı bir rəvayət var: İbn Sina tanınmış alim olanda Bəhmənyar hələ uşaq imiş. Rəvayətə görə, bir gün İbn Sinanın iş otağına qonşuluqda yaşayan bir uşaq gəlib deyir ki, ocaq qalamaq üçün onlara köz lazımdır. Alim uşağa deyir: «Sən özünlə heç nə gətirməmisən. Közü necə aparacaqsan?» Uşaq bir anlığa duruxur. Sonra yerdən bir ovuc torpaq götürüb deyir: «Közü bura qoyun». Alim uşağın fərasətinə heyran olur. İbn Sina isə onun valideynlərinin yanına adam göndərib xahiş edir ki, uşağın onun şagirdi olmasına icazə versinlər. Bəhmənyar İbn Sina haqda xatirələrində belə yazır: "Bir dəfə şənbə günü fəxrlə dərsə gəlmişdik. Elə oldu ki, müzakirədə lazımınca iştirak edə bilmədik. Müəllimimiz dedi: "Görünür, sizin istirahət gününüz faydasız keçib". Mən də yoldaşlarım kimi cavab verdim ki, istirahət günü gəzməyə getmişik, buna görə də dərsimizi yaxşı öyrənə bilməmişik. Bu cavabdan sonra müəllim ah çəkərək, gözü yaşarmış halda söylədi: "Kəndirbaz işi ilə gündəlik məşğul olduğundan, öz kamilliyi ilə hər şeydən baş çıxaran müdrikləri belə heyrətə sala bilir. Niyə sizin aranızdan bir ağıllı və müdrik uşaq çıxmadı ki, dərs oxumağı avaraçılıqdan üstün tutsun?" İbn Sina özü yazırdı ki, Bəhmənyar ona doğma oğlundan da yaxındır...**

***Yol ümiddir, ümidləriniz tükənməsin. Bu günümüzün yolu sabaha uğur gətirsin.***



## TƏBİƏT BİZİM EVİMİZDİR, QORUYAQMI?

Dünya Sağlamlıq Assambleyası atmosfer havasının çirklənməsinin mənfi ekoloji təsirlərinin azaldılması istiqamətində yol xəritəsini təsdiq etmişdir. Həmin yol xəritəsinə atmosfer havasının çirklənməsinin sağlamlığa təsirləri haqqında məlumat bazasının genişləndirilməsi, Dayanıqlı İnkişaf Məqsədlərinin havanın çirklənməsinə dair hədəflərinə istiqamətlənən monitorinqlərin aparılması və hesabatların hazırlanması, bütün səviyyələrdə - yerli, milli, regional və qlobal səviyyədə əməkdaşlıq imkanlarının artırılması kimi fəaliyyətlər daxildir.

Atmosfer havasının çirklənməsinin əsas mənbələrindən biri nəqliyyat vasitələrdir. Artıq bir çox inkişaf etmiş ölkələrdə təbii resursların qənaətlə istifadə edilməsi, habelə ətraf mühitin mühafizəsi məqsədilə Avro standartlarına keçilmişdir. Atmosfer havasının çirklənməsinin qarşısının alınması və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məqsədi ilə enerji effektivliyini təkmilləşdirən texnologiyalardan, habelə davamlı enerji mənbələri kimi alternativ enerjidən (külək, günəş, bioqaz, biokütlə, geotermal, hidroelektrik) istifadə geniş miqyas almışdır.

Mühafizəsi vacib olan mənbələrdən biri də su ehtiyatlarıdır.

Su ehtiyatları tükənən sərvət olduğundan onun inteqrasiyalı və səmərəli idarə olunması çox vacib aspektdir. Belə ki, su ehtiyatlarının səmərəli idarə edilməsi BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədlərinin, təbii fəlakət risklərinin azaldılmasına dair Sendai Çərçivə Programında və Paris Sazişi kimi beynəlxalq müqavilələrə daxil edilmişdir. Dünya İqtisadiyyat Forumu ardıcıl üçüncü ildir ki, su böhranını ilk üç vacib qlobal risklər siyahısına daxil edir.

Torpaqların deqradasiyasının, səhralaşmanın qarşısının alınması, iqlim dəyişikliyindən qorunması məqsədi ilə dünya ölkələrində fermerlər və yerli icmalar arasında dayanıqlı kənd təsərrüfatı, torpaq ehtiyatlarından səmərəli istifadə edilməsinə dair maarifləndirmə işləri aparılır. Həmçinin, bir çox ölkələrdə quraqlıqdan erkən xəbərdarlıq sistemləri qurulur, eroziyaların qarşısının alınması məqsədi ilə meşə əraziləri salınır və yaşıllaşdırma işləri aparılır.

**"Adamları öyrətmək -- onları öyrənməkdən asandır"- (Fransua de Laroşfuko)**

**"Ən çətini özünü dərk etmək, ən asanı isə – başqalarına məsləhət verməkdir"- (Fales)**

**"Yaşlı nəsil gənclikdən narazılıq söyləyəndə onları kimin yetişdirdiyini unudur"-**
**(Əbu Turxan)**

*BELƏ DEYİRLƏR---Aprel ayında doğulanlar: Aktiv və enerji doludurlar. Tez qərar verib tez peşman olarlar, şəfqətlidirlər. Məntiqlidirlər və diplomatikdirlər. İnsanları təsəlli etməyi sevərlər. Dostlarının problemləriylə yaxından maraqlanarlar. Cəsur və macərapərəstdirlər, sevgilərini bəlli edərlər. Yaddaşları güclüdür. Baş və sinə xəstəliklərinə meyllidirlər.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

**"Gündoğar" qəzeti, "Xəzər nəğmələri" ədəbi birliyi şair Müzəffər Məzahimə qardaşı EHTİRAM FƏNANIN vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor**
***B.H.Niftaliyeva***

Ünvan:Neftçala şəhəri, H. Əliyev prospekti 38
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250